*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    11 oktyabr 2017-ci il    № 76 (2193)    Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında biabır etdi

### Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

*Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.*



Bu ilin doqquz ayında ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini deyən Prezident İlham Əliyev iqtisadi göstəricilərimizin müsbət olduğunu vurğuladı. Dövlətimizin başçısı ilin doqquz ayında qeyri-neft iqtisadiyyatının 2,5 faiz artdığını qeyd edərək, bunun son illərdə aparılan siyasətin nəticəsi olduğunu bildirdi. Qeyd etdi ki, bu dövrdə qeyri-neft sektorunun sənaye hissəsində artım 3,1 faiz, kənd təsərrüfatında 2,8 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 7 faiz artıb. Prezident İlham Əliyev vurğuladı ki, doqquz ayda Azərbaycanın valyuta ehtiyatları 42 milyard dollar səviyyəsində olub. "Biz uzunmüddətli dayanıqlı inkişaf barədə düşünürük", - deyən dövlətimizin başçısı iqtisadi imkanlarımızın müstəqilliyimizin əsas şərtlərindən biri olduğunu bildirdi. Vurğuladı ki, 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız doqquz ayın ən uğurlu məsələlərindən biridir.

Prezident İlham Əliyev bu dövrdə yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyini, doqquz ayda 226 min yeni iş yerinin yaradıldığını bildirdi. Ötən dövrdə ölkədə əsas infrastruktur, o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, bu cür tədbirlərin həyata keçirilməsi regionların uğurlu inkişafına və ölkəmizin ümumi iqtisadi tərəqqisinə təkan verir. Bu ilin ötən dövründə yeni məktəblər, tibb ocaqları tikilib və əsaslı təmir edilib. İlin əvvəlindən məcburi köçkünlərin sosial məsələlərinin həlli, onların mənzillə təmin edilməsi məsələsi də diqqət mərkəzində olub.

Cocuq Mərcanlının bərpasını və kənddə sosial infrastrukturun yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı cari dövrdə də məcburi köçkünlərin yeni mənzillərlə təmin ediləcəyini və bu layihənin gələn il də davam etdiriləcəyini bildirdi, indiyədək 250 mindən çox soydaşımızın dövlət tərəfindən mənzillərlə təmin olunduğunu qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, bu ilin doqquz ayında ölkəmizdə idman sahəsində böyük uğurlar qazanılıb, İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə təşkil olunub.

Dövlətimizin başçısı 2017-ci ilin doqquz ayında beynəlxalq arenada mövqelərimizin möhkəmləndiyini, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanındığını vurğuladı, bu dövrdə 14 dəfə xarici ölkələrə səfər etdiyini, 10-dan çox dövlət və hökumət başçısının isə ölkəmizə gəldiyini dedi və hər bir səfərin ölkəmiz üçün faydalı olduğunu vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, bu məsələdə mövqeyimiz dəyişməz olaraq qalır. “Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Ölkəmizin ərazi bütövlüyü danışıqların predmeti deyil və heç vaxt olmayacaq. Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir.

Bilirsiniz ki, son vaxtlar danışıqlarda heç bir irəliləyiş yoxdur. Ermənistan çalışırdı və hesab edirdi buna nail olacaq ki, danışıqlar pozulsun. Yəni, müxtəlif bəhanələrlə bizi ittiham etməklə çalışırdı ki, danışıqlar bərpa edilməsin və buna nail olmaq üçün bir neçə şərt qoymuşdu. Əlbəttə, mən əvvəlcədən də bəyan etmişdim ki, heç bir şərt qəbul edilməyəcək. Onlar bu şərtləri irəli sürərkən özlərini çox axmaq vəziyyətdə qoyurlar və məcbur olub bu siyasətdən əl çəkməli olacaqlar. Həyat və reallıq bir daha onu göstərir ki, həmişə olduğu kimi, bizim təhlilimiz və siyasətimiz tam reallığı əks etdirir.

Bu gün danışıqlar prosesi heç bir şərt qəbul olunmadan bərpa edilir. Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında biabır etdi və danışıqların bərpası bizə edilən hər hansı bir minnət deyil. Onların isterik bəyanatları, başqa ölkələrə qorxu ilə dolu müraciətləri əslində açıq etirafdır ki, döyüşdə onların bizim qarşımızda duruş gətirməsi qeyri-mümkündür. Aprel hadisələri bunu göstərdi. Təmas xəttindəki vəziyyət onu göstərir ki, bu gün biz təmas xəttində hakim mövqelərə tam sahibik. Əlbəttə, Ermənistan daha çox maraqlı olmalıdır ki, danışıqlar bərpa edilsin. Çünki əks təqdirdə onları çox acı nəticələr gözləyir. Məsələ ilə məşğul olan vasitəçilər çalışırlar ki, danışıqlar prosesi bərpa edilsin. Biz də, əlbəttə ki, bunu dəstəkləyirik. Ona görə bir daha demək istəyirəm ki, bu il də bu istiqamətdə real nəticə əldə olunmasa da Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında aciz, gücsüz, asılı ölkə kimi təqdim etmişdir”.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Müdafiə nazirinin Belarusa rəsmi səfəri

*Oktyabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Belarus Respublikasına rəsmi səfəri başlayıb.*

Azərbaycanın Müdafiə naziri Belarusun hərbi sənaye kompleksinin istehsal etdiyi döyüş texnikaları ilə tanış olub.

Belarus Respublikasına rəsmi səfərinin ilk günü Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin hərbi sənaye kompleksinə daxil olan müəssisəni və hərbi poliqonu ziyarət edib.

Azərbaycanın nümayəndə heyəti Belarusun hərbi sənayesinin istehsal etdiyi döyüş texnikaları və hərbi təyinatlı digər vasitələrlə tanış olub, ordumuzun silah arsenalını gücləndirə biləcək silah və hərbi texnika ilə yaxından maraqlanıb.

* * *



General-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Belarusda rəsmi səfərdə olan Müdafiə Nazirliyinin nümayəndə heyəti oktyabrın 9-da Minsk şəhərindəki Qələbə meydanını ziyarət edib. Ənənəyə uyğun olaraq nümayəndə heyətinin rəhbəri Qələbə abidəsinin önünə əklil qoyub, digər üzvləri isə memorial qarşısına çiçək dəstələri düzərək ehtiramlarını ifadə ediblər.

* * *



Oktyabrın 9-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşüb.

Belarus Azərbaycanla hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək niyyətindədir və bu sahədə əməkdaşlıq beynəlxalq öhdəliklərə zidd deyil. Bunu Belarus Prezidenti A.Lukaşenko Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşdə deyib.

A.Lukaşenko deyib ki, iki ölkə arasında münasibətlər heç bir beynəlxalq razılaşmanı, BMT Təhlükəsizlik Şurasının heç bir qətnaməsini pozmur.

"Biz suveren, müstəqil ölkələrik və zamanın ruhuna, ənənəvi qardaşlıq əlaqələrinə malik ölkələrimizin tələbinə uyğun əməkdaşlıq istiqamətlərini müəyyən etmək hüququna malikik. Minskdə, ümumiyyətlə, Azərbaycanla bağlı heç bir narazılıq yoxdur. Biz Azərbaycan xalqına çox böyük hörmətlə yanaşırıq. Mən çox yaxşı xatırlayıram, Belarus xalqının çətin günlərində Azərbaycan Prezidenti öz çiynini irəli verib. Biz bunları yaxşı xatırlayırıq və əgər Azərbaycan üçün edə biləcəyimiz bir şey varsa, bunu etməyə hazırıq. Biz istəyirik ki, sizin xalqınız təhlükəsiz şəraitdə yaşasın və ölkəniz inkişaf etsin", - deyə Belarus Prezidenti qeyd edib.

Belarus Prezidenti Azərbaycan Prezidenti ilə tez bir zamanda görüşə ümid etdiyini də söyləyib.

Öz növbəsində, Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycanda da Belarusu çox sevir və xüsusi hörmətlə yanaşırlar: "Bizim bütün sahələrdə çox sıx əməkdaşlığımız var. Siz düz qeyd etdiniz ki, bizim bir-birimizdən öyrənəcəyimiz çox şey var. Hərbi-texniki sahədə də çox uğurlu layihələr və əməkdaşlıq mövcuddur. Bütün bunlar beynəlxalq qanunlara ziddiyyət təşkil etmir. Tam məsuliyyətlə bəyan edirəm ki, hərbi-texniki əməkdaşlıq çərçivəsində əldə etdiyimiz avadanlıqlar yüksək keyfiyyətə malikdir və onlar Azərbaycan Silahlı Qüvvələrində uğurla istifadə olunur. Bu bizə imkan verir ki, bu sahədə əməkdaşlığı davam və inkişaf etdirək".





* * *

Belarusda səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 9-da bu ölkənin Müdafiə naziri general-leytenant Andrey Ravkovla görüşüb.

Rəsmi qarşılanma mərasimindən sonra Müdafiə nazirlərinin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşlərində tərəflər ikitərəfli münasibətlərin, xüsusilə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.

Nazirlər beynəlxalq və regional təhlükəsizlik problemləri, hərbi ekspertlərin qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıblar.

Görüşün yekununda nazirlər Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında 2018-ci il üçün əməkdaşlıq planını imzalayıb.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasının Hərbi Akademiyasında olub.

Müdafiə nazirinə akademiyanın strukturu, fəaliyyəti və əsas tapşırıqları barədə brifinq təqdim edilib. Hərbi təhsil müəssisəsinin əməliyyat-taktiki və strateji səviyyəli müxtəlif fakültələri ilə tanış olan nümayəndə heyətinə silah, hərbi texnika və digər döyüş vasitələri nümayiş etdirilərək onların təyinatı və tətbiq edilməsi imkanları barədə ətraflı məlumat verilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Tacikistanın Azərbaycandakı səfiri ilə görüşüb

*Oktyabrın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyev ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Tacikistan arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, hərbi əməkdaşlığın, xüsusilə hərbi təhsil sahəsində əlaqələrin perspekivləri müzakirə edilib, regional təhlükəsizlik və müdafiə sahəsində tərəfləri maraqlandıran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının yaxın günlərdə Düşənbə şəhərində keçiriləcək növbəti iclasında iştirak etmək üçün Azərbaycan Müdafiə nazirinin Tacikistana nəzərdə tutulan səfəri ilə bağlı məsələlər də görüş zamanı müzakirə edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 121 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı və Fərəhli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Tariximizə söykənib qələbə qazanacağıq

*Sübh çağıdı. Dağın yamaclarında görünən obaları arxada qoyub, zirvələrə qalxırıq. Sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İslam Məmmədov təcrübəli və yola bələd olsa da, ehtiyatı əldən vermir.*



Dağlara baxıram, zirvələrə qar düşüb. Payız olmağına baxmayaraq qış fəslinin əlamətləri hiss edilməkdədi. Yüksəkliyə qalxdıqca arxada qalan kəndlər ovuc içi kimi görünür. Ətrafa sakitlik çöküb, buludlar sayrışır, bir sözlə, sanki rəssamın yaratdığı əsrarəngiz tablolar ruhumuza sakitlik, duyğularımıza inanılmaz zövq verir.

Bizi müşayiət edən leytenant Mirhüseyn Qasımov kəklikləri görən kimi bildirdi ki, bu dağların yamacı ov heyvanları ilə zəngindir: "Postda olduğum zaman yerləşdiyimiz mövqedən bir qədər aralıda - meşəlikdə iki canavar var idi. Hər gün müəyyən vaxtlarda, əsasən, saat 4-6 radələrində postumuzdan açıq-aydın görünən bir yerdə durur və qəflətən də gözdən itirdilər. Onları seyr etdikcə zövq almaqla yanaşı, bir fikir də məni rahat buraxmırdı - canavarın, bozqurdun bu yerlərdə məskunlaşması torpaqların hansı xalqa məxsus olmasına bir işarə deyilmi?"

Qalxanlı qayaların ətəyindən keçən yolun sonuna yaxınlaşdıqca kor duman ətrafı bürüyür, sürücüyə əlavə çətinlik yaşadır. Buludlar, duman-çən qəribə bir sakitlik gətirib və elə bil biz də bu sakitliyə bürünmüşük. Leytenant Fuad Səfizadənin səsini eşidəndə anladıq ki, deyəsən, bölməyə çatmışıq.

Bölmədə ilk olaraq nəzərimizi səliqə-sahman və ümummilli lider Heydər Əliyevin, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun kəlamları - "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır", "Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir", "Vətənə, xalqa, dövlətə xidmət - ömrümüzün mənasıdır" fikirləri və bu fikirləri özündə əks etdirən plakatlar cəlb edir. Gördüklərimiz bir daha sübut edir ki, Azərbaycan arzusunda olduğu güclü orduya malikdi, malik olduğu güclü ordunun, xidmətini xalqına və dövlətinə ömrünün mənası hesab edən Ali Baş Komandanın və vətənsevər, cəsur əsgərlərin hesabına torpaqlarımız tezliklə işğaldan azad olunacaq.

- Gördüyünüz mövqe Azərbaycan xalqının tarixini özündə əks etdirən bir abidənin ətrafında qurulub, - deyə leytenant Fuad Səfizadə söhbətə başlayır. - Bu abidə dünya miqyaslı tarixi-memarlıq abidəsi olmaqla yanaşı, Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini özündə əks etdirir. Bizim tariximiz yalnız kitablarda deyil, belə tarixi abidələrdə də yaşayır. Vətəndaş kimi, hərbi qulluqçu kimi borcumuz Vətənimizi, tariximizi sevmək və tarixi sərvətlərimizi qoruyaraq gələcək nəsillərə ötürməkdir. Bu gün əsas borcumuz Vətənin müdafiəsini təmin etmək və zəngin tarixə malik ərazilərimizi düşmənlərdən qorumaqdır. Güclü ordumuzun hesabına bu vəzifənin öhdəsindən layiqincə gəlirik. Bu gün mövqedə dayanan əsgər tarixə söykənərək güc aldığından düşmənə qarşı daha qətiyyətlidir.

Manqa komandiri Rəşadət Osmanov bildirir ki, əsas işimiz əsgərlərimizə silahı, texnikanı öyrətməzdən əvvəl mənsub olduğu xalqın tarixini dərindən mənimsətmək və öz doğma Vətəni ilə fəxr etməyi aşılamaqdır. "Tarixi irsimizi, dəyərlərimizi əsgərlərimizə sevdirmək və bu sahəyə aid bilgilərini artırmaq fəaliyyətimizin tərkib hissəsidir. Bununla yanaşı, biz silah və texnikanı da dərindən öyrənirik, öyrədirik".

Hərbi xidmətə Cəlilabad rayonundan gələn əsgər Mirtosif Cəfərov da söhbətə müdaxilə edir: "Əsgər kimi borcumuz komandirlərimizin sayəsində hərbi biliklərə dərindən yiyələnmək, müasir silah və texnikadan mükəmməl istifadə etməyi bacarmaqdır. Onu yaddan çıxarmırıq ki, müharibədə tək silahla deyil, həm də ideya və ruhla döyüşmək lazımdır. Əsgər öz xalqının savaş tarixini bilmirsə, qəhrəmanlarını tanımırsa, o mübariz ruhlu döyüşçü ola bilməz. Biz söykəndiyimiz tariximizdən güc alıb döyüşürük. Məhz keçən ilin aprel döyüşləri qalibiyyətlə başa çatdı. Aprel zəfəri sübut etdi ki, Azərbaycanın igid və cəsur oğulları, qeyrətli və ismətli qızları yenə ön sıralardadırlar."

Duman yavaş-yavaş çəkilir, bizim də söykənib güc aldığımız tarixi abidə, postun qarşısında səngərə çevrilən qayalıq nəzərimizdən qaçmır. Bu qayalıq Dədə Qorqud filmindəki bir fraqmenti - tarixi qəhrəmanlarımızın əbədiyyətə qovuşduqdan sonra daşa dönərək tarixləşməsi səhnəsini gözümün önündə canlandırır. Bir daha əmin olursan ki, hər bir daşımız tarixi özündə yaşatmaqla bərabər, hər biri bir qəhrəmanın rəmzidir. - Dirsə xan oğlu Buğacdı, Dəli Domruldu, Qanturalıdı, Uruzdu - hər bir daşımız düşmən üçün keçilməz qaladı.

- Bu gün ordumuz günü-gündən güclənir, - deyə əsgər Nemət Qeybullayev də söhbətə qoşulur. - Xalqımızın bizə inamı və güvənci sonsuzdur. Vətənə, xalqa sədaqət bizi qələbəyə ruhlandırır.

Əsgər Elnur Məmmədov isə gənclik taleyində həkk olunan əlamətdar bir gündən danışır. Bildirir ki, təntənəli hərbi and mərasimində də and içmişik ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımızı və canımızı əsirgəməyəcəyik. Hər bir silahdaşım da hərbi anda



sadiqdi və Şuşa qalasına, Cıdır düzünə üçrəngli Azərbaycan bayrağını sancacağına ümidlidi. Tezliklə arzularımız çin olsun!

...Gün günortaya yaxınlaşır. Havada könlümə yatan bir hərarət var. Bu hərarəti bizə əsgərlərimizin söhbətləri verib.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Qazaxıstan HHQ-nin nümayəndə heyəti Azərbaycanda səfərdədir



Oktyabrın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Azərbaycanda işçi səfərdə olan Qazaxıstan Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı aviasiya general-mayoru Nurlan Karbenovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə iki ölkənin Hərbi Hava Qüvvələri arasında əməkdaşlığın hazırkı vəziyyəti, gələcək perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin səfər çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin aviabazaları ilə tanışlığı nəzərdə tutulub.

# Azərbaycan Hərbi Dəniz Qüvvələrində təlim kursu keçirilir

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Müdafiə Nazirliyi arasında imzalanmış illik hərbi əməkdaşlıq planına uyğun olaraq Bakı şəhərində Hərbi Dəniz Qüvvələrinin bazasında təlim kursu başlayıb.



Böyük Britaniyanın Kral Hərbi Donanması tərəfindən təşkil olunan "Dəniz təhlükəsizliyinin planlaşdırılması kurs"unda təlimatçı qismində iştirak etmək məqsədilə britaniyalı hərbi dənizçilərdən ibarət heyət ölkəmizə gəlib.

Oktyabrın 9-da kursun açılış mərasimində Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov, eləcə də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri xanım Kerol Meri Krofts iştirak ediblər.

Kurs oktyabrın 13-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# Vətən sizə əmanətdir



Hərbi hissələrə gedərkən nümunəvi xidmətləri ilə fərqlənən gənc zabitlərimizlə tez-tez rastlaşırıq. Elə baş leytenant Yasin Zamanovu da ezamiyyətim zamanı şəxsi heyətlə məşğələ keçərək tanıdım.

Hələ yeniyetmə yaşlarından hərbi mundir geymək arzusunda olan zabit bu arzuyla 2005-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Liseyi müvəffəqiyyətlə başa vurduqdan sonra 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur. Həmin məktəbi 2008-ci ildə artilleriya ixtisası üzrə bitirib, uşaqlıqdan arzusunda olduğu zabit paqonlarını çiyninə taxaraq xidmətə yollanır. Xidmətə ön xətdə başlayan zabit Vətənə sədaqətlə xidmət edir. Nümunəvi xidmətilə yuxarı komandanlığın rəğbətini qazanan zabit hərb peşəsinə yiyələnməyin qürurverici olduğunu bildirdi.

- Vətənə xidmət etmək hamımızın vətəndaşlıq borcudur. Hər birimiz Vətənin keşiyində dayanırıq. Düzdür, əsgər müəyyən bir müddətdə xidmətini başa vurduqdan sonra ehtiyata buraxılır, amma zabitlər bir ömür Vətənlə yaşayır. Bax bu ömrü Vətənlə yaşamaq ən gözəlidir. Çünki Vətən kəlməsi mənalı və dərindir. Deyilişi şirin olduğu kimi, məzmunu, qayəsi də yüksək və hikmətlidir. Bizim müqəddəs borcumuz Vətənə xidmət etmək, hər qarış torpağına sinəmizi sipər edib onu qorumaqdır. Torpaqlarımızın bir hissəsinin düşmən tapdağında olduğu bir vaxtda Vətən bizdən şücaət, hünər gözləyir. Bu gün mən də qanım və canım bahasına Vətənimizi qorumağa, hər qarışı üçün vuruşmağa hazıram.

Bəli, zabitimizin də dediyi kimi, Vətən sevgisi əbədi və əzəli bir qəlb odudur, heç vaxt öz təravətini itirmir. Elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır.

Zabit Y.Zamanov, həmçinin qeyd etdi ki, hər bir zabit Vətəni üçün daha çox çalışmalıdır. "Zabit yaşadığı ölkənin ikiqat vətəndaşıdır. Çünki o həm ölkənin mənafeyi üçün çalışan bir insan, həm də Vətənin keşiyində dayanan, onu gecə-gündüz, isti-soyuq demədən müdafiə edən, lazım gələrsə azadlığı uğrunda şəhid olmağa hazır olan övladdır."

Gənc zabitimiz tabeliyindəki şəxsi heyətə son dərəcə tələbkar və qayğıkeşdir. Onların təlim-tərbiyəsi ilə məşğul olur, vaxtaşırı fərdi söhbət aparır, qayğılarıyla maraqlanır.

Zabitlə söhbətim xoş təəssüratlarla yekunlaşır. Bu cür zabitlərimizlə tanış olduqca fərəhlənirik. Biz də onlara "Vətən sizin kimi oğullara əmanətdir", deyərək, seçdiyi çətin, məsuliyyətli və şərəfli hərbçi həyatında uğurlar arzulayırıq.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun güləş üzrə yığma komandasının üzvləri ilə görüş keçirildi

*Oktyabrın 7-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Litva Respublikasının Klaypeda şəhərində hərbçilər arasında güləş üzrə 32-ci dünya çempionatında iştirak etmiş idmançılarla görüş keçirildi.*




İdmançıları qazandığı nailiyyətlərə görə təbrik edən Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov bildirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin başladığı və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyasının məntiqi nəticəsi olaraq ölkəmiz regionun lider dövlətinə çevrilib: "Azərbaycanın qazandığı uğurlar bütün sahələrdə olduğu kimi idmanın tərəqqisinə də müsbət təsir göstərib. Dövlət rəhbərliyi səviyyəsində idmana göstərilən diqqətin nəticəsi olaraq idmançılarımızın qələbə sorağı Olimpiya oyunlarından, dünya, Avropa çempionatlarından gəlir. Azərbaycan bu sahədə nəinki keçmiş SSRİ respublikalarını, hətta əksər Avropa dövlətlərini də geridə qoyur."

General qeyd etdi ki, idman sahəsində yüksək nailiyyətlərin əldə edilməsində ordu idmançılarının da layiqli töhfələri var: "Onlar bu yaxınlarda Litva Respublikasında ölkəmizin bayrağını yüksəltmək, Dövlət himnimizi səsləndirməklə Azərbaycan əsgərinin döyüş əzminin və qələbə ruhunun yüksək səviyyədə olduğunu bir daha sübut etdilər. 18-25 sentyabr 2017-ci il tarixlərində Litva Respublikasının Klaypeda şəhərində keçirilən Beynəlxalq Hərbi İdman Şurasının 32-ci Dünya çempionatında Azərbaycan Ordusunun güləş üzrə yığma komandası müvəffəqiyyətlə çıxış edərək bir qızıl, üç gümüş və altı bürünc medal qazanaraq, 24 komanda arasında 3-cü yerə layiq görülüb".

Sonda idarə rəisi yüksək nəticələr göstərdiklərinə görə komanda üzvlərini Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik etdi, qələbədə zəhməti olanlara təşəkkürünü bildirdi və gələcəkdə də ölkəmizi layiqincə təmsil edəcəklərinə əminliyini ifadə etdi.



Azərbaycan Ordusunun güləş üzrə yığma komandasının mükafatlandırılması haqqında Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmri oxundu.

Bir qrup idmançı fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyev idmanın inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Azərbaycan hərbi dənizçilərinin İrana səfəri zamanı gəmilər qarşılıqlı ziyarət olunub

*Azərbaycan hərbi dənizçilərinin İrana səfəri çərçivəsində planlaşdırılmış tədbirlər həyata keçirilib. Gəmi heyətləri və rəhbər şəxslərin iştirakı ilə hər iki ölkənin gəmiləri ziyarət edilib.*





İlk olaraq İran hərbi dənizçiləri Azərbaycan gəmisini ziyarət ediblər. Gəmi ilə tanışlıqdan sonra qonaqları maraqlandıran suallar cavablandırılıb.

Azərbaycan dənizçilərindən ibarət heyət isə İranın "Cövşən" raket katerini ziyarət edib.

Sonda dənizçilərimiz İran hərbi dənizçilərinə Azərbaycan mətbəxinin dadlı təamlarını təqdim ediblər.

* * *

Azərbaycan hərbi dənizçilərinin İrana səfəri çərçivəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti müxtəlif görüşlərdə və tədbirlərdə iştirak edib.

Təsdiqlənmiş plana uyğun olaraq hərbi dənizçilərimiz Ənzəli şəhərində yerləşən Şəhidlər Memorial Kompleksini ziyarət edib, əklil və gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər.

Sonra hərbi dənizçilərimiz Ənzəli şəhərinin meri Mirşəm Momenizadənin qonağı olublar. Şəhər rəhbəri qonaqları salamlayaraq Azərbaycan dənizçilərini İranda görməkdən məmnun olduğunu bildirib və Azərbaycana səfəri zamanı unutmadığı xoş xatirələrindən söz açıb. O, həmçinin Azərbaycan-İran hərbi əməkdaşlığının möhkəmləndirilməsində Ənzəli şəhərinin mühüm rol oynayacağına şübhə etmədiyini vurğulayıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri I dərəcəli kapitan Sübhan Bəkirov isə ilk dəfə olaraq hərbi dənizçilərimizin İran limanına səfər etməsinin tarixdə mühüm hadisə olduğunu vurğulayaraq, xoş münasibətə və göstərdikləri diqqətə görə minnətdarlığını bildirib.

Sonra Azərbaycan dənizçiləri Ənzəli Hərbi Muzey Sarayını ziyarət ediblər.

* * *

İrana səfər çərçivəsində Azərbaycanın hərbi dənizçiləri Gilan vilayətinin rəhbəri Mustafa Salari ilə görüşüb.

Görüş zamanı vilayət rəhbəri İran-Azərbaycan münasibətlərinin tarix boyu yüksələn müstəvidə inkişaf etdiyini qeyd edərək, Azərbaycan dənizçilərinin İrana səfərindən şad olduğunu bildirib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri I dərəcəli kapitan Sübhan Bəkirov Ali Baş Komandan İlham Əliyevin Xəzər dənizinin dostluq və qardaşlıq dənizi olduğunu bildirdiyini qeyd edərək, bu cür səfərlərin qarşılıqlı və davamlı olacağına inandığını qeyd edib.

Sonda dənizçilərimiz Rəşt muzeyini ziyarət ediblər.

* * *

İran İslam Respublikasında dostluq səfərində olan Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Vətənə qayıdıb. Hər iki ölkənin bayrağının dalğalandığı İranın Ənzəli limanından hərbi orkestrin müşayiəti ilə yola salınan dənizçilərimiz oktyabrın 9-da axşam saatlarında Bakıya çatıblar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Biz Qarabağa qayıdırıq" səyyar sərgisinə start verilib

*Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsi məqsədilə mədəniyyət və incəsənət nümunələrinin müstəsna əhəmiyyəti nəzərə alınaraq birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir. Mədəniyyət, ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərin təşkili artıq bir ənənə halını alıb.*



"N" hərbi hissəsində Azərbaycan Rəssamlar İttifaqının üzvü, batalist rəssam Bayram Əlioğlunun əsərlərindən ibarət "Biz Qarabağa qayıdırıq" sərgisi şəxsi heyətin böyük marağına səbəb olub.

Müdafiə Nazirliyinin zabiti, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani səyyar rəngkarlıq sərgisinin açılışında çıxış edərək bildirib ki, rəssam Bayram Əlioğlu Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunudur. Onun yaradıcılığında Qarabağ mövzusu, döyüş səhnələrinin təsviri və Qarabağ mənzərələri əsas yer tutur. Rəssamın hərbi vətənpərvərlik mövzusuna, ümumiyyətlə, döyüş səhnələrinin təsvirinə müraciəti heç də təsadüfi deyil. O, 1991-ci ildə könüllü olaraq yenicə yaranmaqda olan milli ordumuzun sıralarına daxil olmuş Ağdərə, Tərtər, Goranboy, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Mina partlayışı nəticəsində ağır yaralansa da, hərbi hospitalda müalicəsi başa çatar-çatmaz yenidən cəbhə bölgəsinə qayıdıb. 1996-cı ildə ordudan ehtiyata buraxılan Azərbaycan Respublikasının müharibə veteranı Bayram Əlioğlu yaradıcılığını davam etdirərək bir çox məzmunlu və orijinal əsərlər yaradıb.

Qeyd olunub ki, "Biz qayıdırıq, Mübariz!", "Ağdərə döyüşlərində", "Əsgəran qalası azad edildi" və digər əsərlərinin də nümayiş olunduğu səyyar sərgi on gün davam edəcək və döyüş mövqelərində, ön səngərdə xidmət keçən hərbi qulluqçular da batalist rəssamın yaradıcılığı ilə tanış olacaqlar.

Rəssam yaradıcılığı və döyüş yolu barədə hərbi qulluqçuların suallarını cavablandırıb, əsərlərində arzu olaraq Qarabağın düşmən işğalından azad olunduğunu əminliklə təsvir etdiyi kimi, həmin torpaqların real vəziyyətdə qəhrəman döyüşçülərimiz tərəfindən tezliklə azad ediləcəyinə və bu arzuların həqiqətə çevriləcəyinə inandığını bildirib.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində xidmətlərinə görə döyüşçü rəssam hərbi hissə komandanlığı tərəfindən fəxri fərmanla təltif olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## AŞPA Nazirlər Komitəsinin sədri azərbaycanlı deputatın sessiyada qaldırdığı məsələni dəstəkləməyə çağırıb

Avropa Şurası Parlament Assambleyasının payız sessiyasının ilk günündə təşkilatın Nazirlər Komitəsinin sədri, Çexiya Respublikasının xarici işlər naziri Lubomir Zaoraleke Assambleya üzvləri qarşısında çıxış edib və onların suallarını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva təşkilatın azad demokratlar qrupu adından Nazirlər Komitəsinin sədrinə sual verib.

O, mədəni irsin məhv edilməsi və qanunsuz ticarətinə qarşı mübarizəyə dair bu ilin mayından etibarən ratifikasiyasına start verilmiş "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasının əhəmiyyətinə toxunaraq, üzv ölkələrdə bu sənədin imzalanması və ratifikasiyası istiqamətində Çexiyanın AŞPA-nın Nazirlər Komitəsinə sədrliyi dövründə konkret hansı işlər görüldüyünü soruşub.

Lubomir Zaoralek deputatımızın tamamilə haqlı sual verdiyini, münaqişələrin və terror aktlarının davam etdiyi bir vaxtda bu konvensiyanın böyük əhəmiyyət kəsb etdiyini bildirib. Nazir deyib ki, artıq 8 ölkə bu konvensiyanı ratifikasiya edib. Konvensiyanı ratifikasiya etmiş dövlətlərin sayını artırmaq üçün deputatlları öz ölkələrində müvafiq səylər göstərməyə və bu məsələyə dəstək verməyə çağırıb.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericilik aktları.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi qanunvericilik və dövlət təhlükəsizliyi ilə əlaqədar qanunvericilik aktlarından istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları.**

**2. Hərbi qulluqçuların hüquq və vəzifələri.**

*Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zərurətə çevrildi. Silahlı Qüvvələrin formalaşdırılması üçün isə ilk növbədə hüquqi zəmin yaradılmalı idi.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik ənənələrinin qorunması, Azərbaycanın gələcək rifahı naminə zəruri tədbirlərin həyata keçirilməsi ölkənin özünəxas imicinin formalaşması üçün vacib və təxirəsalınmaz məsələlərdəndir. Bu siyasət hazırda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu mənada dövlət başçısının hələ 2004-cü il sentyabrın 17-də imzaladığı 394 nömrəli sərəncam Azərbaycanın milli maraqlarının qorunması baxımından son dərəcə böyük əhəmiyyət daşıyır. Bu sərəncam təhlükəsizliyə qarşı adekvat tədbirlərin həyata keçirilməsi zərurəti ilə bağlı olaraq ölkənin milli təhlükəsizlik siyasətinin hazırlanması sahəsində mühüm addım oldu.

Ölkənin milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyi, ərazi bütövlüyü və demokratik inkişaf yolunda həyata keçirilən çoxşaxəli siyasəti özündə ehtiva edən mühüm sənəddir. Bu sənəd Azərbaycan Respublikasında cəmiyyəti, dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət yanaşmalarının ümumi məcmusudur. Milli təhlükəsizlik konsepsiyasının həyata vəsiqə qazanması ölkənin Hərbi doktrinasının, xarici siyasət strategiyası, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat konsepsiyalarının hazırlanmasını da zərurətə çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 23 may tarixli sərəncamı Azərbaycan Respublikasının Hərbi doktrinasının yaradılmasını işçi qrupunun qarşısında əsas vəzifə kimi qoymuşdur. Dövlətin, cəmiyyətin, o cümlədən bütün vətəndaşların maraqlarını özündə əks etdirən Hərbi doktrina milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olmaqla bərabər, həm də hərbi siyasətin əsaslarını müəyyənləşdirən strateji əhəmiyyətli sənəddir və ölkənin müvafiq sahədə təhlükəsizlik prioritetlərinin müəyyən edilməsində istisnasız rola malikdir. Elə məhz buna görə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən cari ilin 18 may tarixində təsdiq olunmaq üçün Milli Məclisə təqdim olunan və iyunun 8-də ölkə parlamentinin təsdiq etdiyi müstəqil Azərbaycanın ilk Hərbi doktrinası təkcə Silahlı Qüvvələrimizin həyatında deyil, ümumiyyətlə, Azərbaycan Respublikasının həyatında tarixi bir hadisədir. Bu sənəd Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının mili təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olmaqla bərabər, ümumiyyətlə, bütövlükdə Azərbaycanın hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirir.

Hal-hazırda Ermənistan "Avropada adi silahlı qüvvələr haqqında" 1990-cı ildə imzalanan müqavilənin müddəalarını pozaraq Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdür.

Azərbaycanın müdafiə siyasətinin məqsəd və prinsipləri Hərbi doktrinada öz əksini tapıb. Hərbi doktrina Azərbaycan Silahlı Qüvvələrinin vəzifələrini müəyyənləşdirir.

Bu mühüm sənədin hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ hüquqi aktları, Milli təhlükəsizlik konsepsiyası, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Hərbi doktrina ərazilərimizin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması faktını Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid kimi xarakterizə edir. Azərbaycan Respublikasının müdafiə siyasətinin beynəlxalq hüququn norma və prinsipləri əsasında formalaşdığı burada xüsusi qeyd olunur.

Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas prinsipləri və hərbi təhlükəsizliyin hərbi-strateji əsasları da əks olunub.

Ermənistan tərəfindən torpaqlarımızın bir hissəsinin işğal altında saxlanması və işğal etdiyi əraziləri könüllü azad etməkdən imtina etməsinə görə Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə hərbi gücün tətbiq edilməsi hüququnu özündə saxlayır.

Doktrina Silahlı Qüvvələrin istər dinc dövrdə, istərsə də müharibə şəraitində yerinə yetirilməli olduğu vəzifələri də ətraflı şəkildə göstərir. Ermənistan Respublikası ilə mövcud münaqişənin nizama salınması üçün təcavüzkara strateji təzyiqin artırılmasını, ölkə ərazisinə daxil olmuş təcavüzkarın qoşun qruplaşmalarının və onun əməliyyat ehtiyatlarının darmadağın edilməsi üzrə strateji və döyüş əməliyyatlarının aparılmasını və s. müharibə dövründə Silahlı Qüvvələrin əsas vəzifəsi kimi müəyyənləşdirir, təcavüzün dəf edilməsi vəzifələrinin icrasının Azərbaycan Respublikasının qanunvericiliyinə və Ali Baş Komandanın əmr və göstərişlərinə, habelə müvafiq planlara uyğun olaraq həyata keçirilməsini xüsusi vurğulayır.

Hərbi doktrinada Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hazırkı mərhələdə və orta müddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetləri də göstərilib. Bu məsələdə mürəkkəb və sürətli dəyişən əməliyyat şəraitində müasir müdafiə və hücum əməliyyatlarının aparılması bacarığına yiyələnməyi, düşmənə qarşı konseptual effektiv və praktiki müqavimət üsullarının işlənib hazırlanması, Silahlı Qüvvələrin əməliyyat qabiliyyətinin və xüsusi informasiya idarəetmə bacarığının inkişafı və s. əsas götürülüb. Hərbi intizamın daim möhkəmləndirilməsi, komplektləşdirilmə sisteminin təkmilləşdirilməsi, hərbi qulluqçuların və mülki işçilərin sosial müdafiəsinin gücləndirilməsi, həyat şəraitinin daim yaxşılaşdırılması da hərbi quruculuğun inkişaf perspektivlərini müəyyənləşdirən amillər kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılmasının hüquqi təməli qoyuldu. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun 1-ci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biridir. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsasları, gənclərin hərbi xidmətə hazırlıq qaydaları, hərbi xidmətə çağırışın qaydaları və şərtləri, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydaları, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsasları, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq məsələləri təsbit edilir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Sərhəd Qoşunlarında, Daxili Qoşunlarda və qanunvericiliyə uyğun yaradılmış digər qoşun birləşmələrində hərbi xidmət keçilməsinin qaydasını müəyyən edən "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu 1992-ci il noyabrın 3-də Milli Məclis tərəfindən qəbul olunmuşdur. Həmin qanuna görə, hərbi qulluqçular və hərbi vəzifəli şəxslər əsgər (matros), çavuş, gizir (miçman) və zabit heyətlərinə, zabit heyəti isə kiçik, baş və ali zabit heyətlərinə bölünür.

Qanunda həqiqi hərbi xidmətin müddəti də aydın şərh edilib. Dinc dövrdə bu müddət ali təhsili olan hərbi qulluqçular üçün 1 il, əsgər və çavuşlar üçün 1 il 6 ay müəyyən edilir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Prezidentin təsdiq etdiyi Əsasnaməyə uyğun fəaliyyət göstərir və Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanıdır. Eyni zamanda onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsi hazırlığına görə tam məsuliyyət daşıyır.

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu 1994-cü il yanvarın 6-da Milli Məclis tərəfindən qəbul olunmuşdur. Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, digər qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsinin əsaslarını, qaydalarını və hüquqi nəticələrini müəyyənləşdirir.

Hərbi vəziyyət Azərbaycan Respublikasının Prezidenti tərəfindən fərmanla tətbiq edilir. Prezident hərbi vəziyyətin tətbiq edilməsi haqqında fərmanı dərhal Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir və Milli Məclis 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir.

*Hərbi qulluqçuların hüquq və vəzifələri*

Hərbi qanunvericilik, şübhəsiz ki, həm də vacib tərbiyəedici rola malikdir. Normativ aktlarda hərbi quruculuğun ideya və prinsiplərinin əks olunması, bu normaların həyata keçirilməsinin təmin edilməsi hərbi qulluqçuların dünyagörüşünə, şüuruna və davranışına təsir göstərir, dövlətin müdafiə qüdrətinin gücləndirilməsində, hərbi hissə və gəmilərdə hüquq qaydalarının möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda hərbi qulluqçuların öz hüquq və vəzifələrini bilməsi, Azərbaycan hərbi qanunvericiliyinin müəyyən etdiyi qaydada xidmət etməsi, təminatlardan yararlanması üçün şərait yaradır. Bu baxımdan 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən qəbul edilmiş "Hərbi qulluqçuların statusu haqqında" qanun xüsusilə diqqəti cəlb edir. Hərbi qulluqçular bu qanunla və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyənləşdirilən və hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər. Hərbi qulluqçular Azərbaycan Respublikası vətəndaşlarının bütün vəzifələrini, habelə öz statusundan irəli gələn vəzifələri daşıyırlar.

Hərbi xidmətin şəraiti ilə əlaqədar olaraq hərbi qulluqçuların ümumi vətəndaşlıq hüquqlarının məhdudlaşdırılması, habelə onlara əlavə hüquqlar verilməsi və əlavə vəzifələr tapşırılması bu qanunla, digər qanunvericilik aktları və Silahlı Qüvvələrin nizamnamələri ilə müəyyən edilir.

Hərbi qulluqçular hərbi xidmət vəzifələrini faktiki yerinə yetirdikləri bütün hallarda, o cümlədən döyüş əməliyyatlarında iştirak edərkən, təlimlərdə, döyüş növbəsində (döyüş xidmətində), gündəlik və qarnizon növbələrində, toplanışlarda, ezamiyyətlərdə olarkən, xidmət yerinə gedib-gələrkən və başqa hallarda hərbi xidmət başında sayılırlar.

Hərbi qanunvericiliyə uyğun olaraq, hərbi qulluqçular Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa, Hərbi and içməyə, Azərbaycan qanunlarına əməl etməyə, komandir və rəislərin əmrlərini qeyd-şərtsiz yerinə yetirməyə borcludurlar.

Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçu eyni zamanda seçkili dövlət orqanlarına seçmək və seçilmək, şəxsiyyət toxunulmazlığı, əmək, pul və maddi təminat, istirahət, təhsil, təklif, ərizə və şikayət hüquqlarına malikdir. Qanunla hərbi qulluqçuların dini əqidə azadlığına təminat verilir.

Eyni zamanda hərbi qulluqçuların mənzillə təmin olunmaq, sağlamlığın mühafizəsi və sağlamlığa vurulmuş zərərin ödənilməsi, ailələrinin sosial müdafiəsi, pensiya təminatı hüquqları vardır.

Hələ 1992-ci il aprelin 29-da "Hərbi qulluqçuların pensiya təminatı haqqında" qanun qəbul edilmişdir. Hərbi qulluqçular bu qanunla müəyyən olunmuş müddət ərzində hərbi xidmət və orqanlarda xidmət etdikdə ömürlük pensiya hüququna malik olurlar.

Bu qanunda göstərilir ki, xidmət müddəti başa çatmış, eləcə də nəzərdə tutulan şəraitdə əlil olmuş hərbi qulluqçular əlilliyə görə pensiya almaq hüququna malikdirlər. Hərbi qulluqçular həlak olduqda və ya vəfat etdikdə ailələri ailə başçısını itirməyə görə pensiya almaq hüququna malikdirlər.

Qanunda xüsusilə qeyd edilir ki, dolanacaq xərcləri dəyişdikdə pensiya məbləğlərinin də müntəzəm surətdə dəyişdirilməsi yolu ilə pensiyaçıların sosial müdafiəsi təmin ediləcəkdir. Hərbi qulluqçuların hüquq və vəzifələri eyni zamanda Silahlı Qüvvələrin nizamnamələrində öz əksini tapmışdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Hərbi hissədə “kino nümayişi günləri”

*"N" hərbi hissəsində şəxsi heyətin Vətənə, xalqa, milli dəyərlərə sədaqət ruhunda formalaşması istiqamətində məqsədyönlü tədbirlər keçirilir. Belə mədəni-kütləvi tədbirlər əsgərlərdə qədim və zəngin tariximizə dərin maraq oyadır, hərb tariximizin öyrənilməsinə, vətənpərvərlik hisslərinin yüksəldilməsinə xidmət edir.*



Polkovnik-leytenant Rüstəm Məmmədov söhbətimizdə bildirdi ki, Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlıqlarının artırılması üçün tədbirlər yüksək səviyyədə təşkil olunur. “Gənc əsgərlərin ordu həyatına alışmasına isə xüsusi diqqət və qayğı göstərilir. Onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə Gəncə şəhərinin müvafiq təşkilatları ilə birgə tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemiylə birgə tədbirlər də hərbi qulluqçular tərəfindən rəğbətlə qarşılanır. Ötən ilin aprel döyüşlərinə həsr olunmuş igidlərin xatirə gecələri, anım mərasimləri Vətən övladlarının xatirəsinə böyük məhəbbətin ifadəsidir."

Bu günlər hərbi hissədə “kino nümayişi günləri”nin keçirilməsinə start verilib. Bu münasibətlə əsgər klubunda keçirilən tədbirdə öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi yad olunub.

Əsgər klubunun müdiri Müşviq Verdiyev, kitabxananın əməkdaşları Elnarə Hüseynova, Səidə Müseyibova çıxış edərək milli kinonun yaranma tarixindən, kino sənətinin inkişafına dövlətimiz tərəfindən göstərilən qayğıdan bəhs ediblər. Bildiriblər ki, başqa yaradıcılıq sahələri kimi milli kinomuzun inkişaf etdirilməsinə ulu öndər Heydər Əliyev tərəfindən həmişə yüksək diqqət, qayğı göstərilib. Bu işlər hazırda Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir və müasir kino sənətimizdə uğurlar durmadan artır.

Kino günlərində hərbi qulluqçulara "Babək", "Nizami", "Yeddi oğul istərəm", "Dəli Kür", "Ulduz", "Axırıncı Aşırım", "Bəxtiyar", "Koroğlu", "Qatır Məmməd", "Böyük Dayaq" və başqa filmlər nümayiş etdiriləcək.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

# Nişan üzüyü



"Aylar-illər çox tez ötüşdü. Vüqarım yolda-izdə, çöldə-düzdə dava-dava oynayardı. Dava-dava oynaya-oynaya böyüdü. Telimin birini ağ hördüm, birini qara, tay-tuşlarından geri qalmasına imkan vermədim, qoymadım atasızlıq sıxıntıları çəksin. Böyüdü. Məktəbə getdi. Döyülüb üstümə gəlmədi, qapıma şikayətə gələn olmadı. Ali təhsil aldı. Hərbi xidmətə getdi. On aydan sonra tabutunu gətirdilər. Döyüşdə şəhid olmuşdu balam..." - Səmayə neçə illəriydi hər gün Gün yaxanda həyətlərindəki tut ağacının altında özüylə dərdləşərdi. Bu illər ərzində bir dəfə də olsun şəhid anasıyam kəlməsini dilinə gətirməmişdi. "Verən də bəllidi, alan da..." - çarəsiz təsəlliyə sığınardı. Qonşuları nə qədər tələsik işi olsa da, günün bu vaxtında onun qapısını döyməzdi, heç kim cavan gəlin olanda ərini, ərinin ölümündən iyirmi il sonra yeganə oğlunu itirən Səmayəni bəlli xəyallarından ayırmazdı. Səmayənin niyə dan yeri söküləndən günün batmasını gözlədiyini, niyə gün yaxa-yaxda bu hala düşdüyünü hamı bilirdi.

Hər gün bu vaxtlar Vüqarın şəhid olduğu anı xatırlayırdı:

Gün yaxmaqdaydı. Sakitliyiydi. Həzin-həzin meh əsirdi. Vüqar döyüş növbətçiliyindəydi. Dörd-beş erməninin mövqelərimizə yaxınlaşdığını görən kimi komandirə məlumat vermişdi və əmr alan kimi atışa başlamışdı. Ermənilər geri çəkilməmişdi. Vüqar atışı mövqenin sağ cinahından davam etdirmiş, birini öldürmüşdü. Kömək çatana kimi təkbaşına atışmışdı. Ermənilərdən birini də öldürmüşdü. Az sonra sol döş nahiyyəsindən yaralanmışdı. Hospitala çatdırılsa da, xilas etmək mümkün olmamışdı...

Səmayə ağlamışdı, şivən qoparmamışdı. Vüqarın balaca qardaş kimi əzizlədiyi Şəhriyar onun boynuna sarılmışdı. Hönkürtüylə ağlamışdı. "Vüqar olacam sənə, Səmayə xala. Vüqarın mən olacam. Bir gözüm atamın ocağının keşikçisi olacaq, bir gözüm sənin ocağının..."...

Dəfndən sonra hər gün göz yaşı ürəyini islatmışdı. Hər il Vüqarın doğum günündə, bayramlarda, bir də şəhid olduğu gün dan yeri sökülər-sökülməz qəbiristanlığa gedərdi - təkcə. Hələ heç kim onun qəbiristanlığa getdiyini görməmişdi. Bir dəfə Vüqarın qəbrinin üstə bir dəstə bənövşə görmüşdü. "Bənövşə gətirib. Dərd qaysaqlayır, unudulmur..." - düşünmüşdü. Göz yaşları Vüqarının baş daşındakı şəklini islatmışdı...

Gün batmaqdaydı. Tut ağacının kölgəsi doqqaz qapısına kimi uzanmışdı. Yoldan-izdən səs-səmir gəlmirdi. Hərə öz evinin çal-çəpərinin, mal-qarasının qayğılarının cəfakeşiydi. Ağacın kölgəsində tək-tənha oturmuşdu. Əl - çənədə, dirsək - dizdə. Gözləməsi olmasa da, gözləri yol çəkirdi. Gözlədiyi heç zaman gəlməyəcəkdi. Hərdən gözlədiyinin səsi gəlirdi qulağına: "Belə eləmə, ay ana. Gözləmə məni. Evə get. Sazaqdı. Üşüyərsən...". "Sən basdırdığın ağacdan alıram ətrini, ay oğul. Ağaca əl sürtəndə elə bilirəm saçlarında gəzişir əlim..." - köksünü ötürdü...

Onu kövrək xəyaldan qonşusu Gövhərin səsi ayırdı...

Gövhər Səmayəni oğlu Şəhriyarın nişanına çağırırdı:

- Sənsiz nişan eləmərəm, ay bacı. Dünya dağılsa da eləmərəm. Gor qonşusuyuq. Arada çəpər olsa da bir evli olmuşuq...

Nizamı-sırası pozulmuş xəyallarından çətinliklə də olsa qurtara bildi:

- Gələrəm, niyə gəlmirəm. Allah xoşbəxt eləsin. Kimin qapısına gedəcəyik? - soruşdu.

- Poçtalyon Səmədin sonbeşik qızı Nərgizlə nişanlayırıq...

Araya üzücü sükut çökdü. Səmayə bir anlığa, tək bircə anlığa göy üzünə baxdı. Kirpiklərinin nəmləndiyini gizlətmək üçün ayağa qalxdı.

- Pal-paltarımı dəyişib gələrəm, - dedi...

...Vüqar universiteti bitirib kəndə qayıtmışdı. Hərbi xidmətə gedəcəkdi. Onda bunca iri olmayan tut ağacının altında çay içirdilər. Vüqar bir qədər çəkinə-çəkinə, "Ay ana", - demişdi. "Poçtalyon Səmədin qızı Bənövşəni görübsənmi? Böyüyüb, gözəlləşib...". Daha heç nə deməmişdi. Səmayə də heç nə soruşmamışdı, oğlunun saçlarını oxşamışdı. Onu bilmişdi ki, oğlu Vüqar Poçtalyon Səmədin böyük qızı Bənövşəylə əhd-peyman bağlayıb. Bu sevdadan heç kimin xəbəri yoxdu. Bir dəfə bulaqda qəsdlənib Bənövşənin anasına sirr açmaq istəmişdi. Niyəsə, sözünü udmuşdu. "Özü gələr, elçi gedərik. Vüqar çiy iş tutan oğul deyil. Qızın könlü olmasa, adını dilinə gətirməzdi..." - Vüqarın qayıdacağı günü gözləyirdi; murazlı analar günləri barmaqhesabı sayır...

Anasından yadigar qalmış üzüyü çıxartdı. Vüqarın nişanı üçün saxlayırdı. Anasından sonra barmağa taxılmamışdı. "Gəlinimin barmağına taxılacaq..." - belə əhd etmişdi. Üzüyü götürdü. Ağ kalağayısını çiyninə atdı - Vüqar hərbi xidmətə getmə ərəfəsində İrandan gətizdirmişdi...

Poçtalyon Səmədin evində söz sözü çəkdi. Şəhriyarın əmisi gəlişlərinin mətləbini bildirdi. Çox nəm-nüm etmədilər. "Allah mübarək eləsin!" deyilincə, Səmayə ayağa qalxdı.

- Nərgiz balamı bəri çağırın, - dedi. - Ona deyiləcək sözüm var.

Nərgizi çağırdılar. Gəldi. Səmayə onun alnından öpüb ağır-ağır dilləndi:

- Barmağını bəri elə, a bala. Bu üzüyü Vüqarımın nişanlısının barmağına taxacaqdım. Belə əhd eləmişdim. Qismət olmadı. Vüqar yoxdu, əhdim yerindədi. Vüqar yoxdu, Şəhriyar var. Vüqarın dostu mənim də balamdı.

Nərgizi öpdü:

- Şükür ki, murazım gözümdə qalmadı. Xoşbəxt olun, ay bala. Allah ömür versə, balaca Vüqarın ad gündə ayaqyalın oynayacam...

Hamı kövrəlmişdi. O qədər gözlənilməz, o qədər gözəl, o qədər bənzərsiz kövrəkliyiydi ki!..

Bənövşə o biri otaqda dörd yaşlı qızını köksünə sıxıb için-için ağlayırdı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türk əsgəri Suriya ilə sərhədi keçib



Türkiyə ordusunun bölmələri İdlibdə atəşkəs rejimini izləmək məqsədilə Suriya sərhədini keçib.

Türkiyə Silahlı Qüvvələrinin bölmələri qarant ölkələrin (Türkiyə, Rusiya və İran) daxil olduğu nəzarət qüvvələrinin tərkibində yer alır.

Məlumata görə, Türkiyə hərbçiləri İdlib bölgəsində icra edəcəkləri fəaliyyət çərçivəsində müşahidə nöqtələri yaratmaq üçün oktyabrın 8-də kəşfiyyat işlərinə başlayıblar. Onlar bölgədəki vəzifələrini Astana danışıqlarında müəyyənləşdirilən qaydalara uyğun surətdə yerinə yetirəcəklər.

## Səudiyyə kralının sarayı qarşısında atışma zamanı iki mühafizəçi həlak olub



Səudiyyə kralının Ciddə şəhərindəki sarayının qarşısındakı postun atəşə tutulması nəticəsində mühafizə xidmətinin iki əməkdaşı həlak olub, daha üç mühafizəçi yaralanıb.

Bu barədə məlumat krallığın Daxili İşlər Nazirliyinin Twitter sosial şəbəkəsindəki mikrobloqunda yerləşdirilib. Nazirliyin nümayəndəsi bildirib ki, sarayın qərb darvazalarının qarşısındakı mühafizə postuna avtomobildən atəş açılıb. Mühafizə xidmətinin əməkdaşları hücuma dərhal qarşılıq veriblər. Atəş açan şəxs hadisə yerində öldürülüb.

Hücum edənin 26 yaşlı Səudiyyə Ərəbistanı vətəndaşı olduğu bildirilir. Onun avtomobilindən Kalaşnikov avtomatı və üç yandırıcı qumbara tapılıb.

## ABŞ-a məxsus üç qırıcı təyyarə Yaponiyada məcburi eniş edib



Yaponiyanın Misava hərbi bazasında qeydiyyatda olan ABŞ-a məxsus üç qırıcı F-16 təyyarəsi Komatsu bazasına məcburi eniş edib.

Məcburi enişə səbəb təyyarələrdən birinin mühərrikində baş verən nasazlıq olub. Digər iki təyyarənin məcburi eniş etməsinin səbəbləri barədə məlumat verilmir. Hadisə nəticəsində xəsarət alan olmayıb.

Naqasakidən havaya qalxan hərbi təyyarələr Misava bazasına uçurmuş. Hadisə nəticəsində Okinavadan Komatsuya uçan sərnişin təyyarəsinin 5 dəqiqə gecikdiyi bildirilir.

## Srebrenitse müdafiəsinin rəhbərinə bəraət verilib



Sarayevo məhkəməsi Bosniya müsəlmanlarının sabiq komandiri Naser Oriçə bəraət verib. O, 1992-1995-ci illər Bosniya müharibəsi vaxtı üç hərbi əsiri öldürməkdə ittiham olunurdu. Bosniya müsəlmanları Oriçi qəhrəman hesab edir, çünki o, Srebrenitsenin müdafiəsini təşkil edib. 1995-ci ilin iyul ayında serb ordusu şəhərdə təxminən 8 min müsəlmanı qətlə yetirib. Bu hadisə İkinci Dünya müharibəsindən sonra ən ağır hərbi cinayət sayılır. Keçmiş Yuqoslaviya üzrə beynəlxalq tribunal bunu soyqırımı adlandırıb.

2006-cı ildə Haaqa tribunalı Oriçə iki il müddətinə həbs cəzası kəsib, lakin işə təkrar baxılandan sonra ona bəraət verilib.

## Arakanlı müsəlmanları daşıyan qayıq batıb: ölənlər və itkin düşənlər var



Myanma ilə Banqladeşin sərhədində Arakanlı müsəlmanları daşıyan qayıq batıb.

Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat yayıb.

Bildirilir ki, ordunun zülmündən qaçaraq Banqladeşə sığınmaq istəyən 12 nəfər həlak olub. Onlardan 10-u uşaqdır. Hələlik hadisə zamanı qayıqda olanların 13 nəfəri xilas edilib. İtkin düşən 25 nəfərin axtarışı davam edir.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qəhrəmanın xatirəsinə futbol turniri keçirilir

*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı mayor Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş bölükllərarası futbol turniri başlanıb.*



Birinciliyə həsr olunan mərasimdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycanın Dövlət himni oxundu.

Hərbi liseyin idman rəisi Fərhad Əliyev tədbirdə çıxış edərək bildirdi ki, Vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi daim hörmətlə yad edilir. "Neçə ildir Hərbi liseydə ənənəvi olaraq Azərbaycanın Milli Qəhrəmanı mayor Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş futbol turniri keçirilir. O, Hərbi liseyimizin məzunu olub. Təhsilini başa vurandan sonra Bakı Ümumqoşun Komandirləri Məktəbində oxuyub. 1985-1987-ci illərdə Əfqanıstanda gedən müharibədə iştirak edib. Göstərdiyi qəhrəmanlığa görə "Qızıl ulduz" ordeni ilə təltif olunub. 1988-ci ildə Vətənə dönüb. Həmin il Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəbə bölük komandiri təyin olunub. 1992-ci ilin əvvəllərində erməni işğalçıları torpaqlarımıza hücum edəndə başqa vətənpərvər zabitlərimiz kimi o da döyüşlərə yollanıb. 1992-ci il noyabrın 1-də qəhrəmancasına şəhid olub. Ulu öndər Heydər Əliyevin 15 fevral 1995-ci il tarixli fərmanı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb."

İdman rəisi turnirin əhəmiyyətindən də danışaraq qeyd etdi ki, belə tədbirlərin keçirilməsi kursantların həm fiziki hazırlıqlarına, həm də hərbi vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir.

Turnirdə qələbə uğrunda 9 komanda öz gücünü sınayacaq. İlk oyunda 6-cı və 2-ci bölüyün komandaları qarşılaşdılar. İkinci hissənin başa çatmasına az qalmış 6-cı bölüyün futbolçuları ilk qolu vurdu. Oyun bu hesabla da başa çatdı.

Milli Qəhrəman mayor Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş futbol turniri oktyabrın 22-də başa çatacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Ermənistan ordusunda xəsarət alanların sayının çoxalması əsgər valideynlərinin narazılığına səbəb olub

Son vaxtlar Ermənistan ordusunda silah-sursatla davranış zamanı xəsarət alanların sayının çoxalması əsgər valideynlərinin ciddi narazılığına səbəb olub.

İşğal olunmuş ərazilərimizdə yerləşən Ermənistan ordusunun döyüş postlarından birinə yaxın ərazidə mina partlaması nəticəsində Yervand Xaçatryan və Roland Diyeğazaryan adlı hərbi qulluqçular müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Əsgər Vahe Qriqoryan isə ona təhkim olunmuş silahını təmizləyərkən mövcud nasazlıq səbəbindən açılan atəş nəticəsində əlindən yaralanaraq taborun tibb məntəqəsinə yerləşdirilib. Komandanlıq tərəfindən hadisə barədə əsgərin valideynlərinə məlumat verilməsi qadağan edilib.

Sırxavənd yaşayış məntəqəsi ərazisində müdafiə zolağında mühəndis-istehkam işləri aparərkən Aşot İsraelyan adlı hərbi qulluqçu da bədən xəsarətləri alıb. Əsgərin valideynlərinə hadisənin təhlükəsizlik qaydalarının pozulması səbəbindən baş tutması barədə məlumat verilməsinə baxmayaraq, hərbi qulluqçunun yaxınları A.İsraelyana münaqişə zəminində xəsarət yetirildiyi iddiası ilə hüquq-mühafizə orqanlarına müraciət ediblər.

İşğal olunmuş ərazilərimizdə dislokasiya olunan düşmən ordusunun hərbi hissələrində son günlər baş verən hadisələr nəticəsində 10 nəfərdən artıq hərbi qulluqçu ciddi bədən xəsarətləri almışdır ki, bu da əsgər valideynləri tərəfindən sosial şəbəkələrdə Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyinin ünvanına çoxlu sayda şikayətlərin səsləndirilməsinə səbəb olub.

Valideynlərin haqlı narazılığına səbəb olan hallardan biri də Ermənistan Müdafiə Nazirliyi istintaq idarəsi tərəfindən aparılan cinayət işləri zamanı valideynlərin müxtəlif haqsızlıqlara və süründürməçiliklərə məruz qalmalarıdır. Valideynlər bildirirlər ki, istintaq aparan müstəntiqləri hadisələrdə günahı olanların müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması deyil, kimdən necə və nə qədər rüşvət ala biləcəkləri daha çox maraqlandırır.

**İsa ELDAROĞLU**

*Hərbi ənənələr, yeniliklər*

# "Çellencer-2" tankı



"Çellencer-2" Böyük Britaniyanın əsas döyüş maşınlarından biridir. Onun hazırlanması na ötən əsrin sonlarında başlanıb. Dərin modernləşdirilmiş döyüş maşını İngiltərə ordusunda bu adı daşıyan üçüncü tankdır.

Onun seriyalarla istehsalı Lidse və Nyukasle zavodlarında həyata keçirilib.Tankın hazırlanmasında 250-dən çox podratçı-şirkət iştirak edib. 1994-cü ildə ilk sınağı keçirilib. Maşın uzunluğu 55 kalibr olan 120 mm-lik L30 topu ilə təchiz edilib. Əsas diqqət topun atəşaçma dəqiqliyinə və sıxlığına yönəldilib. Gövdəsi və asılma ekranı yüksək keyfiyyətli zirehdən hazırlanıb. Bu da ona mərmiəleyhinə mühafizəni təmin edir. Mühərrikinin inşasında bir sıra dəyişikliklər edilib.

Maşınlar yeni asılma zirehli dəstlə, təkmilləşmiş top və mühərriklə, müasir atəşi idarəetmə sistemi ilə təchiz edilib.

2014-cü ildə "Çellencer-2" tankının yenidən modernləşdirilməsi mərhələsi başlayıb. Onun ön hissəsində idarəetmə bölməsi, ardınca döyüş bölməsi, motor-transmissiya bölməsi isə arxa tərəfdə yerləşdirilib. İdarəetmə bölməsində mexanik-sürücü maşının orta hissəsində, sağ və sol tərəfində isə heyətin qalan üç nəfəri - tuşlayıcı, komandir və təchizatçı yerləşdirilib.

Tankda atəşi idarəetmə sistemi, onun bazalı modifikasiyasında isə bir ədəd teplovizor quraşdırılıb. Tam hazırlıq keçmiş tankın heyəti eyni bir anda yeddi hədəfi məhv edə bilər. Maşında da ballistik hesablayıcı, komandir üçün gündüzgörmə nişangahı, tuşlayıcı üçün lazerli uzaqölçən nişangah və teplovizor vardır. "Çellencer-2" hidropnevmatik asma qurğu, 1200 at gücündə mühərriklə və hidromexaniki transmissiya ilə də təchiz edilib. Tankın çəkisi 62,5 ton, gövdəsinin uzunluğu 8,3 metr, eni 3,5 metr, hündürlüyü 2,5 metrdir. Silahlanmasına 120 mm-lik L30A1 topu və iki ədəd 7,62 mm-lik pulemyot daxildir, döyüş dəsti 52 atışdır, mühərriki 1200 at gücündədir. Şosse yolda sürəti saatda 59 kilometr, ehtiyat hərəkəti isə 450 kilometrdir və heyəti dörd nəfərdən ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Kikboksçumuz Almaniyada çempion olub



Azərbaycan Kikboksinq Federasiyasının üzvü, bir sıra beynəlxalq yarışların qalibi, peşəkar kikboksçu Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində növbəti döyüşünü keçirib.

MMA (qarışıq döyüş növləri) və K-1 versiyaları üzrə beynəlxalq kikboksinq turnirində Azərbaycanı təmsil edən "Tank" ləqəbli Xəyal Əhmədov Kevin Keitke ilə mübarizədə qalib gələrək çempion adını qazanıb.

Xatırladaq ki, Xəyal Əhmədov 2016-cı ilin noyabrında erməni idmançını Almaniyada nokauta salmaqla qələbə qazanmışdı.

## Triatlonçumuz Avropa kuboku yarışlarının gümüş medalını qazanıb



Azərbaycanın triatlon üzrə yığmasının üzvü Rostislav Pevstov Avropa kuboku yarışlarının gümüş medalını qazanıb.

İspaniyanın Melilla şəhərində keçirilən final turnirində idmançımız yeddinci olub. Belə ki, triatlonçumuz 1500 metrlik su məsafəsini 21 dəqiqə 16 saniyəyə başa vurub. Ardınca isə 40 kilometr velodistansiyanı 58 dəqiqə 1 saniyə nəticə ilə qət edib. Nəhayət, yarışların son mərhələsi - 10 kilometrlik qaçış zolağını R.Pevtsov 31 dəqiqə 50 saniyəyə başa vurub.

Cari mövsümdə keçirilən Avropa kuboku yarışlarının ümumi hesabında Rostislav ikinci olub və gümüş medal qazanıb.

Avropa kubokunun finalında digər idmançımız Kseniya Levkovskaya da iştirak edib. İdmançımız finişə 7-ci çatıb.

## Ən güclü idman gimnastları və akrobatlar müəyyənləşəcək



Gimnastika növləri üzrə təşkil olunacaq birgə yarışlarda bu dəfə akrobatlar və idman gimnastları bir araya gələcəklər.

Noyabrın 17-dən 18-dək Milli Gimnastika Arenasının köməkçi zalında kişi və qadın idman gimnastikası üzrə Azərbaycan çempionatı və Bakı birinciliyi, eyni zamanda akrobatika gimnastikası üzrə Azərbaycan çempionatı təşkil olunacaq.

## Azərbaycan atıcısı dünya kuboku yarışlarının finalında mübarizə aparacaq



Oktyabrın 23-də Hindistanda güllə atıcılığı üzrə dünya kuboku yarışlarının final mərhələsi başlayacaq.

Yeni Dehlidə yeddi gün davam edəcək yarışda Azərbaycan da təmsil olunacaq. Ölkəmizin idman şərəfini Ruslan Lunyov qoruyacaq. O, 25 metr məsafədən atəşaçma yarışlarında dəqiqliyini yoxlayacaq.

## İdmançımız Dünya Kuboku yarışında tamblinq növündə bürünc medal qazanıb



Batut gimnastikası üzrə yığma komandamızın üzvləri İspaniyanın Valladolid şəhərində keçirilən Dünya Kubokunda iştirak ediblər.

Turnirdə ölkəmizi Svetlana Makştaryova, Veronika Zemlyanaya, İlya Qrişunin, Oleq Piunov, Ruslan Ağamirov və Mixail Malkin təmsil ediblər. Bir neçə gün əvvəl Portuqaliyada keçirilən Dünya Kubokunun qızıl medalına sahib olan Mixail bu turnirdə də uğurlu çıxışı ilə yadda qalıb. Gimnastımızın tamblinq cığırındakı hərəkətlərinin icrası hakimlər tərəfindən 70,900 xalla dəyərləndirilib. Bu isə ona yarışların bürünc medalını qazandırıb.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Məhəmməd ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 394 Nüsxə 4600 |